*Eyvazova Yeganə Məhəmməd qızı,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Mədəniyyət və*
*İncəsənət Universiteti*

# İŞĞALDAN AZAD OLUNMUŞ QARABAĞDA MUZEY İŞİNİN BƏRPASI

Dünya hərb tarixinin nəticələri müharibə və münaqişələrin, təkcə canlı insan resurslarına deyil, bəşəriyyətin zaman-zaman insan tərəfindən yaratdıqlarına da ciddi zərbə vurduğu faktını birmənalı şəkildə sübut edir. Tarixin müxtəlif çağlarında Azərbaycan xalqı bu problemlə üzləşmiş, ona məxsus olan mədəni irsin dəyərli nümunələrini itirmişdi. İtirilmiş mədəni irs problemi 1988-ci ilin fevralından başlayan Qarabağ münaqişəsinin alovlanaraq 1992-ci ilin qışından qızğın döyüşlər-müharibə formasına keçidi ilə daha geniş vüsət aldı. Ən dəyərli mədəni sərvətlərlə Qarabağ muzeylərində təmsil olunan zəngin mədəniyyət təhlükəli risk altına düşməklə itirilməyə məhkum oldu. Mədəni irs obyektlərinin aparıcı qolunu təşkil edən muzeylər tarixən müharibələrdən ən çox əziyyət çəkən mədəniyyət müəssisələrindəndir: Qarabağ müharibəsində də bu istisna deyildir! Bununla bağlı 1994-cü ilin yanvar ayında Beynəlxalq Muzeylər Şurası (ICOM) Azərbaycan Milli Komitəsi YUNESKO-nun Baş direktoru cənab Frederiko Mayora və Beynəlxalq Muzeylər Şurasının Baş katibi xanım Elizabet de Porta  “Azərbaycan milli sərvətlərinin qorunması üçün” müraciət olunmuş, 1996-cı ildə UNESCO Azərbaycanın işğal olunmuş ərazilərində muzey obyektlərinə həsr olunmuş “Azərbaycanın itirilmiş mədəni dəyərləri” adlı liflet nəşr etmişdir. Sovet üsuli-idarəsi dövrünə təsadüf edən hərbi münaqişənin başlandığı tarixi mərhələdə Azərbaycanda fəaliyyət göstərən muzey şəbəkəsinin mühüm bir hissəsini, məhz Qarabağ muzeyləri təşkil edirdi. Bunların sayı ilə bağlı müxtəlif kəmiyyətlərin göstərilməsi bəzi muzeylərin ictimai əsaslar üzərində fəaliyyət göstərməsi faktı ilə arqumentləşdirilir ki, bunu da qarabağlıların öz mədəni irsinə olan marağı, yüksək muzeyşünaslıq təfəkkürü ilə əsaslandırmaq olar. İctimaiyyata hərbi müdaxilənin başlandığı dövrdə Qarabağ muzeylərinin dövlət statistikasına görə 22 [1, s.148], müstəqil tədqiqatçıların (“Qarabağ muzeyləri” layihəsinin müəllifinin bu istinadı rəsmi mənbə və vaxtılə həmin muzeylərdə çalışmış əməkdaşların fikirlərinə əsaslanır) apardığı indiki araşdırmalara görə isə, 34 sayda (bunlardan 29-u rəsmi statuslu, ikisi - Şuşa qalası Gəncə qapısının yanında “Daş sənətkarlığı Muzeyi” və “Molla Pənah Vaqifin məqbərə muzey kompleksi” ictimai

əsaslarla) olması haqqında məlumat məlumdur [2]. Bu məsələnin dəqiqləşdirilməsi məqsədilə  dövlət rəsmiləri və müstəqil araşdırmaçıların birgə əməkdaşlığı labüddür. Aşağıdakı siyahı araşdırılan tarixi mərhələdə Qarabağ muzeylərinin sayı və şəbəkəsini əks etdirir:

1. Zəngilan Tarix diyarşünaslıq muzeyi;
2. Filial: Xalqlar Dostluğu muzeyi;
3. Daş Heykəllər muzeyi;
4. Laçın Tarix diyarşünaslıq muzeyi;
5. Filial: Sarı Aşığın xatirə muzeyi;
6. Qubadlı tarix-diyarşünaslıq muzeyi;
7. Füzuli tarix-diyarşünaslıq muzeyi;
8. Füzuli B.Sərdarovun ev-muzeyi;
9. Bala Bəhmənli kənd Tarix-diyarşünaslıq muzeyi;
10. Cəbrayıl tarix-diyarşünaslıq muzeyi;
11. Filial: Cəmil Əhmədovun ev-muzeyi;
12. Ağdam tarix-diyarşünaslıq muzeyi;
13. Ağdam Rahib Məmmədov adına Döyüş şöhrəti muzeyi;
14. Ağdam Q.Primovun ev-muzeyi;
15. Ağdam Çörək Muzeyi;
16. X.B Natəvanin xatirə muzeyi;
17. S.S. Axundovun xatirə muzeyi;
18. Şuşa şəhərinin tarixi muzeyi;
19. Şuşa Ü.Hacıbəyovun Şuşadakı ev-muzeyi;
20. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı;
21. Dövlət Qarabağ Tarixi muzeyi;
22. Şuşa Bülbülün ev muzeyi;
23. Şuşa Mir Mövsüm Nəvvabın xatirə muzeyi;
24. Şuşa qalasının Gəncə divarının yanında Daş Muzeyi;
25. Xan qızı Natəvanın ev muzeyi;
26. Vaqifin məqbərə kompleksi;
27. Yaşıl aptek muzeyi;
28. Xankəndi tarix-diyarşünaslıq muzeyi;
29. Xocalı (Yaloba) tarix-diyarşünaslıq muzeyi;
30. Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi.

Rəsmi məlumata əsasən, bu muzeylərin fondunu 125 minə yaxın muzey əşyası təşkil edirdi. Bu rəqəm də son deyil, çünki erməni əhalisinin yaşadığı keçmiş Martuni (indiki Xocavənd), Mardakert (indiki Ağdərə), Hadrutdakı (indiki Xocavənd) muzeylərin toplusu zəngin olmasa da, lakin bunların da Qarabağ muzey fondunun ümumi sayında təmsil olunmaqla yuxarıdakı rəqəmin yüksələcəyini şəksiz edir. Lakin Qarabağ muzeylərinin mötəbərliyi, təkcə Qarabağ muzey fondunun zənginliyi ilə deyil, həm də bəzilərinin, nəinki keçmiş SSRİ-də, eləcə də dünyada unikallığı ilə seçilməsi faktı ilə izah edilirdi. Belə ki, Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 26 sentyabr 1985-ci il tarixli 502 №-li əmrinə əsasən yaradılmış Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialı, Ağdam Çörək muzeyi muzey dəyərinə görə bəşəri əhəmiyyətə malik muzeylər idi. Bu muzeylərin unikallığı profil xüsusiyyətlərinə görə dünyada yeganə olması ilə bağlı idi. Bu qısa tarixi ekskursun əsas məqsədi erməni tə-

cavüzünün Qarabağ muzeylərinə vurduğu zərbənin acı nəticələri haqqında obyektiv təsəvvürün formalaşması və bu istiqamətdə itirilmişlərin geri qaytarılması, bərpası prioritetlərinin üzə çıxarılaraq təhlilindən ibarətdir.

Qarabağ ətrafında baş verən hadisələr bu prosesin böyüyərək müharibə ilə nəticələnə bilməsi təsəvvürlərindən uzaq olduğuna görə (axı, sovet hökumətinin öz əhalisinə düşmən kəsilə biləcəyinə kim inana bilərdi?!) başqa sahələrdə olduğu kimi, muzeylərin fəaliyyətlərinin də səfərbər edilməsi, evakuasiyasını həyata keçirilməsi barədə nə dövlət, nə də lokal qərarların çıxarılması aktual vəzifəyə çevrilməmişdir. Yalnız baş verən hadisələrin nəticələrini qabaqcadan duyan bəzi muzey rəhbərləri prosesə daha tədbirli yanaşaraq muzeylərin köçürülməsi, fond kolleksiyaları, ekspozisiyada nümayiş etdirilmiş eksponatların qablaşdırılaraq təxliyyəsini təmin edə bilmişlər. 19 may 1987-ci il tarixindən Şuşa şəhərində XVIII əsrin tarixi-memarlıq abidəsi sayılan Mehmandarovların malikanəsində (Köçərli küçəsi, ev 17) fəaliyyət göstərən Azərbaycan Xalçası və Xalq Tətbiqi sənəti Dövlət Muzeyinin Şuşa filialında nümayiş olunan Bakıdakı muzeyin əsas fondundan seçilmiş xovlu, xovsuz xalçalar, xalça məmulatları, bədii tikmə, milli geyim nümunələri, zərgərlik və bədii metal məmulatları 1992-ci ilin mart ayında təxliyə olunmuşdur. Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyinin kolleksiyaları direktor Taryel Abbaslının şəxsi təşəbbüsü ilə işğal altından çıxarılaraq İstiqlal muzeyinə, Ağdam Çörək Muzeyinin ekspozisiyasında nümayiş etdirilmiş arxeoloq İdeal Nərimanov tərəfindən arxeoloji qazıntılar zamanı Çalağan təpədə aşkar edilən 6000 yaşlı buğda dənələri Ağdam Mədəniyyət şöbəsinin müdiri Çimnaz Əliyevanın təşəbbüsü ilə Azərbaycan Tarix Muzeyinə təhvil verilmişdir. İşğal dövrünü əhatə edən 29 il ərzində fəaliyyətlərini Azərbaycanın müxtəlif yerlərində davam etdirən Qarabağ muzeyləri özlərinin varlığını sübut edir, ölkənin muzey işinin inkişafına fəal şəkildə qoşulurdular. Sevindirici haldır ki, bu məsələ ilə fikirlər artıq keçmiş zamana uyğun olaraq işlədilir. İşğal dövründə Azərbaycan dövlətinin muzey işinin inkişaf strategiyasında Qarabağ muzeylərinin fəaliyyətinə prioritet kimi yanaşılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2007-ci ildə imzaladığı “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında”kı Sərəncamında işğal altındakı Qarabağ muzeyləri də xatırlanmış, bu sənəddən irəli gələn tələblər həmin  muzeylərə də şamil edilmişdir. Müxtəlif yerlərdə fəaliyyətini davam etdirən Qarabağ muzeyləri ilə yanaşı, 2015-ci ildə yaradılmış Virtual Qarabağ tarixi muzeyinin əsas missiyası tarixin kütləviləşdirilməsi, müxtəlif muzeylərdə saxlanılan və Qarabağın tarixini, mədəni irsini özündə əks etdirən eksponatları bir yerdə toplamaq, Qarabağ mədəniyyətini, Qarabağ tarixini gənc nəslin arasında təbliğ etmək idi. Virtual muzeyin yaradılmasında ümumi sayı 32 olan Azərbaycan, eləcə də dünya muzeylərində qorunan Qarabağla bağlı muzey əşyalarından istifadə olunmuşdur ki, bunların sırasında Kəlbəcər, Ağdam tarix-diyarşünaslıq muzeylərinin kolleksiya nümunələrini misal göstərmək olar. Bütün bu faktlar Azərbaycanda muzey işinin inkişafında işğal faktorunun olduğu dövrdə belə Qarabağ muzeylərinin mövcud imkanları çərçivəsində fəaliyyətdə olduğunu sübut edir.

Qarabağda muzey işinin bərpası təkcə fəaliyyətini dayandırmış, müvəqqəti köçürülmüş muzeylərin yenidən öz ərazilərinə qaytarılması ilə kifayətlənmir. Bu sahədə işin digər prioriteti ölkə başçısı İlham Əliyevin Qarabağın bərpası ilə bağlı siyasətində qabardılmışdır. Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirdiyi müşavirədəki nitqində qeyd etmişdir: “Şəhərlər bərpa olunarkən hesab edirəm, hər bir şəhərdə dağıdılmış yerlər qalmalıdır ki, bunu heç kim heç vaxt

unutmasın. Şəhərsalma işləri aparılarkən müəyyənləşdirib, sonra mənə məruzə edin, misal üçün, Ağdam şəhərinin, Füzuli şəhərinin, digər şəhərlərin hansı hissəsi, hansı kvartalı dağıdılmış vəziyyətdə qalsın, Ermənistan işğalının açıq səma altında muzeyi kimi. Hesab edirəm ki, azad olunmuş bütün şəhərlərdə işğal muzeyləri də yaradılmalıdır. Memorial komplekslərlə, bizim Zəfərimizi əks etdirən abidələrlə bərabər, işğal muzeyləri də yaradılmalıdır". Təklif olunan Zəfər və İşğal muzeyləri Qarabağda muzey işinin bərpasının digər istiqamətini təşkil edir. Bu işin reallaşmasının əsası 2021-ci il mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində qoyuldu. Kompleks ümumilikdə 22 hektara yaxın ərazini əhatə edəcəkdir. Ağdam şəhərinin müəyyən bir hissəsinin dağılmış vəziyyətdə qalması və Ermənistanın Qarabağda törətdiyi terrorizminin vizual mənzərəsinin təsəvvürü məqsədilə açıq səma altında memorialın yaradılması nəzərdə tutulmuşdur. Memorialın layihəsi belədir: 17.23 hektar ərazini əhatə edəcək kompleks müasir dizayn əsasında layihələndirilən muzey binası, xatirə gölü, memorial bağ və dağıntılardan ibarət olacaqdır. Ağdam Zəfər muzey kompleksi 5 hektara yaxın ərazini əhatə etməklə müasir dizaynlı bina, Bayraq meydanı və Zəfər arenası hissələrini əhatə edəcəkdir. Hazırda Ağdam Zəfər və İşğal muzeylərinin fondlarının yaradılması layihəsi üzrə tədbirlərə start verilmişdir. Bununla bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi 22 aprel 2022-ci il tarixindən başlayaraq Ağdamla bağlı maddi və qeyri-maddi dəyərlərin toplanılması üçün xalqa müraciət etmişdir. Bütün bunlar muzey işinin dirçəldilməsi məsələsinin işğaldan azad olunmuş Qarabağın bərpası layihəsinin ayrılmaz tərkib hissəsi olduğunu sübut edir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Eyvazova Y. Tarix və mədəniyyət abidələrinin mühafizəsi. Dərslik. Bakı. "Adiloğlu" nəşr., 2021. 616 s.
2. https://modern.az/az/news/76031/bir-daha-qarabag-muzeyleri-haqqında